# Vətənpərvərlik ünvansızdır

***Harada yaşamasından asılı olmayaraq qəlbində ana məhəbbəti, Vətən sevgisi, yurda, torpağa bağlılıq hissi olan hər kəs millətini sevən və vətənpərvər kimi ali titullu insanlardır. Ağıl və vicdanın diktəsi isə ürəyin səsidir. Məhz bu xarakterli biri - millətinin vurğunudur Abil Əliyev. Vətəndən uzaqlarda yaşasa da azərbaycançılıq onun «qanında, canında» var.***

***Oxucularımıza Abil Əliyevlə olan kiçik müsahibəmizi təqdim edirik.***

***- Abil müəllim, sizi tanımaq istərdik. Özünüz haqda qısa da olsa oxucularımıza məlumat verə bilərsinizmi?***

- Qəbələ rayonunun Vəndam qəsəbəsində, zəhmətkeş bir ailədə doğulmuşam. Vəndam qəsəbə 2 saylı məktəbdə orta təhsil almışam. Bakıda orta ixtisas texniki peşə məktəbində təhsil almış, məişət avadanlıqlarının təmiri ixtisasına yiyələnmişəm. 1983 - 1985-ci illərdə Qazaxıstanda əsgəri xidmətdə olmuşam. 1988-ci ildən Mingəçevir şəhərində əmək fəaliyyətinə başlamışam. Bir müddət sonra öz doğma kəndimdə - qəsəbəmdə məişət avadanlıqları təmiri sexi açmış, əhaliyə xidmət etmişəm.

SSRİ dağıldıqdan sonra, 1996-cı ildən bu günədək Rusiyada, Saxalin vilayətinin mərkəzi Yujno Saxalin şəhərində yaşayıram.

Burada təhsilimi də davam etdirmişəm.

Vostok Dövlət Universitetinin "İdarə və təşkilatların yaradılması və idarə olunması" fakültəsində təhsil almışam, bu biznes işlərini qurmaqda və davam etdirməyimdə əsaslı rol oynamışdır.

***- Bəs ailəniz?***

- Ailəliyəm, üç övladım var. İki övladım Saxalində orta təhsilini başa vuraraq doğma Vətənimizdə ali təhsil almışdır. Hal-hazırda Bakıda yaşayırlar. Oğlum Xəyal və qızım İnci ailəlidirlər, bir nəvəm var. Kiçik qızım Yağmur isə onuncu sinifdə oxuyur.

***- Neçə ildir ki, Vətəndən uzaqlarda yaşayırsınız. Sizi buna nə vadar etdi?***

- Bayaq qeyd etdiyim kimi 1996-cı ildən Vətəndən uzaqda yaşayıram, artıq 28 il olacaq. Vətənimdən uzaq, mühacir kimi yaşamaq fikri isə təhsilimi davam etdirmək, peşəmi, işimi təkmilləşdirmək məqsədim olmuşdur.

***- Qarşılaşdığınız çətinliklər, mühacirət həyatı Vətənə dönüş hissi yaratmadımı sizdə?***

- Əlbəttə, mühacirətdə yaşamaq çox çətin olur, amma öz işini məqsədinə uyğun qurmaq, heç bir uğur asanlıqla əldə olunmur. İlk aylar hamı kimi mənim də fikrim Vətəndə və ailəmizdə olardı, onları düşünərdim. Ancaq insan məqsədinə çatmaq üçün başladığı yola sonunadək davam etməlidir. Ona görə də işimi nizama salıb ailəmə və Vətəndə yaşayan doğmalarıma qarşılaşdıqları problemlərin həllində kömək etmək üçün var gücümlə çalışırdım. İnsan öz arzusuna çatmaq üçün yekdil bir fikirlə mübariz olmalıdır.

***- Azərbaycanı bu ölkədə necə tanıyırlar? Azərbaycançılıqla bağlı ideya və arzularınızı necə həyata keçirməyə başladınız?***

- Burada Azərbaycanımız haqda çox az məlumatlı idilər. Ulu öndərimiz Heydər Əliyevin diaspor haqqındakı qərarından sonra dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar öz fəaliyyətlərini qanuni şəkildə gücləndirdilər. 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində məsələ qaldırılıb, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi haqqında qərar qəbul olundu. Daha sonralar isə «Xaricdə yaşayan soydaşlarımıza dövlət qayğısı haqqında» qanunlar qəbul olundu ki, bu da xaricdə yaşayan həmvətənlərimizə dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirdi. Ulu öndərin «Mən fəxr edirəm ki, azərbaycanlıyam...» sözləri hər kəsin dilində ən xoş kəlama çevrildi.



***- Diaspora var idimi yaşadığınız ölkədə? Siz bu diasporaya azərbaycanlıları necə cəlb etdiniz,maraq var idimi bu birgəliyin yaranmasına?***

- Yaşadığım ölkədə azərbaycanlılarla sıx əlaqə saxlayaraq «Dostluq» təşkilatımızı yaratdıq. Əvvəllər çox çətinliklərlə üzləşdik. Vətənpərvər insanlarla görüşlər təşkil etdik və ətrafımıza məhz milliliyimizi qoruyub saxlayan vətənsevərləri topladıq.

***- Diaspora ilə Azərbaycanı hansı nöqteyi-nəzərdən tanıdırdınız; hərtərəfli, yoxsa xarici siyasət baxımındanmı? Necə fəaliyyət göstərirdiniz? Bu diaspora nə işlər gördü və görür?***

- Demək olar ki, hərtərəfli təbliğ edirdik ölkəmizi. Tədbirlər keçirirdik, musiqimizi, milli mətbəximizi tanıdırdıq. Tədbirlərimizə dəvət etdiyimiz qonaqları ölkəmizin coğrafi ərazisi, sərvətlərimiz, elm adamlarımız, tariximiz, sosial-iqtisadi, mədəni inkişafımızla tanış edir, ölkə rəhbərliyinin xarici siyasəti ilə tanış edir, məlumatlandırırdıq. İşğal olunmuş ərazilərimiz və qonşu dövlətin məkrli, faşist əqidəsini tanıdır, Xocalı və Qarabağımızın bir çox yerlərində törədilən faciələr filmləri nümayiş etdirirdik. Biz bu fəaliyyətimizi bu gün də davam etdiririk. Yaxın illərin qələbələri ilə bərabər keçmişimizin canlı tarixini unutmamaq və unutdurmamaq bizim əsas məqsədimizdir.

***- Ölkəmizdə gedən 44 günlük müharibəyə və müharibədən sonra baş verən terror hadisələrinə münasibət və baxış necə idi və necədir? Qarabağ Azərbaycandır! - deyimi orada öz əksini tapırmı? Ordumuz və dövlətçiliyimiz, siyasətimiz, qazanılan Zəfərə münasibət haqda bir neçə kəlmə deyə bilərsinizmi?***

- Məlumdur ki, yaşadığımız bölgədə də məkrli düşmənlərimizin nümayəndələri vardır, hər zaman da aramızda Qarabağla bağlı mübahisələr gedirdi və bu söhbət davam edir. Ancaq 44 günlük Vətən Müharibəsi, ölkəmizin apardığı siyasətin bariz nümunəsi və faşist, nasist əqidəli mənfurlara güclü və dəqiq cavab oldu. Dəmir yumruq ilə xalq və ordu düşmənə güclü zərbə endirdi və 30 illik əsarətdə olan torpaqlarımız işğaldan azad oldu, Zəfər tarixi yazıldı. Əlbəttə, bu biz mühacirlər üçün qürur və vüqar idi və biz qalib ölkə, qalib millətin nümayəndəsi kimi fəxr edirik. Bu qələbə mənfur qonşularımızın diasporasına da güclü zərbə oldu. Baş verən toqquşmalar zamanı da igid Vətən oğulları onlara layiqincə «cavab» verirlər. Həmçinin 2023-cü il də öz hadisələri ilə hər birimizdə tarixi yaddaşı təzələdi. Düşmənlərimizin tör-töküntüləri torpaqlarımızdan rədd edildi və bu davam edir.

***- Bilirik ki, döyüşlərdə qələbələr "qanla" qazanılır. Qəhrəman oğullarımız Vətəndən uzaqlarda da yad edilirmi?***

- Şəhidlik ünvansızdır. Torpağı, xalqı, milləti uğrunda canın fəda edənlər tarixi yaddaşlara həkk olunurlar, unudulmurlar! Biz onları həmişə yad edirik.

Mən tez-tez doğma Vətənimə gəlirəm və hər dəfə gələndə qazi və döyüşçülərlə görüşür, şəhid məzarlarını ziyarət edir, ailələri ilə görüşürəm, onlara həsr olunmuş tədbirlərdə iştirak edirəm. Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimov eloğlumdur və qohumluq əlaqəmiz vardır. Mən onunla igidliyi, əqidəsi, insanlığı ilə fəxr edirəm!

Həmçinin ölkəmizdə olarkən bir neçə telekanallarda Azərbaycan diasporası və vətənpərvərlik mövzulu verilişlərdə iştirak etmişəm.

***- 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi sizdə də bayram kimi qarşılanırmı?***

- Bu bayram elə bizim - harada yaşamasından asılı olmayaraq, damarlarında azərbaycanlı qanı axan hər kəsin bayramıdır! Əlbəttə, burada yaşayan azərbaycanlılar və Azərbaycanı sevən dostlarımızla birgə biz bayramımızı qeyd edirik.

***- Doğma elə, Vətənə arzularınız?***

- Yaşadığım ölkədə 7 saat fərq vardır. Ancaq mən ölkəmizin saatının hər saniyəsinin fərqindəyəm. Çünki Azərbaycan ata-ana yurdumdur! Azərbaycan övladlarımın hazırda yaşadığı ölkədir! Azərbaycan Vətəndir. Həyatda insan üçün, ölkə üçün, dövlət üçün vacib və xoş nə varsa elimə, Vətənimə - ellilərimə, həmvətənlərimə arzulayıram!

***- Müsahibə üçün təşəkkür edirik, Abil müəllim!***

**Bibixanım İSAYEVA,**
**«Qəbələ»**

# Rəsmi qeydiyyatlı ictimai birlik

Qəbələ! Bu torpaq məşhur və tanınmış şəxsiyyətlərin vətənidir. Bu torpaq hərb sənətinə İsmayıl bəy Qutqaşınlı, Polad Həşimov kimi generallar bəxş edib.

Bu torpağın övladlarından onlarla elmlər doktoru, professor, yüzlərlə elmlər namizədi elm aləminə üz tutub. Bu torpaq ədəbiyyatımıza Molla Gülü Zəlami-Qələmi (Vəsfi), İsmayıl bəy Qutqaşınlı, Abdulla Qutqaşınlı, İbrahim bəy Musabəyov və s. kimi görkəmli şəxsiyyətlər bəxş edib. Görkəmli yazıçı və maarifçi xadim İbrahim bəy Musabəyovun eyni adlı ssenarisi əsasında Azərbaycanın ilk səsli bədii filmi „Neft və milyonlar səltənətində" filmi 1916-cı ildə kino lentə alınıb. Son illərə nəzər salsaq Qəbələdən kənarda mahnıları dillər əzbəri olan tanınmış yazarlardan Tacəddin Şahdağlı, Qəbələmizin Sabiri adlanan Şərif Tahirli kimi şairlərin şeirləri bu gün də dillər əzbəridir.

Qəbələ yazarlarından danışanda bu gün Fəxrəddin Bababəylini, Cəlil Xeyirbəyi, Qərib Hüseyini, Şakir Xəyalı, Emin Baratoğlunu, Pərvanə Zalamlım, Bibixanım İsayevanı, Zinyət Tahirlini, Mərziyyə Əfəndiyevanı, Məzahir Xalidoğlunu, Xəyal Gəncimovu, Gülxar Vəfalını, şeirlərini çap etdirə bilməyən bir çox yazarları unutmaq olmaz.

2019-cu ildə Qəbələ rayonunun bir qrup yazarının təklifi ilə „Qəbələ Yazarları" ictimai birliyi yaradıldı. İlk üç iclasını Qəbələ Rayon mərkəzi kitabxanasında keçirən şairlər birliyi öz ətrafında qısa bir zamanda onlarla qələm adamını birləşdirdi.

Təəssüflə qeyd edirəm ki, bu qədər tanınmış yazarı olan bir rayonda 2023-cü ilə kimi qeydiyyatdan keçmiş bir yazarlar birliyi yaranıb fəaliyyət göstərməmişdir. Qəbələ rayon mədəniyyət mərkəzində keçirilən „Qəbələ Yazarları" ictimai birliyinin üzvləri birliyin iclasında açıq səsvermə yolu ilə öz sədrini seçmək qərarına gəldilər. Babayev Fəxrəddin Hünbət oğlu yekdil səslə birliyin sədri, Umarova Gülxar Cəfər qızı sədr müavini seçildilər. Bir müddət qeyri rəsmi fəaliyyət göstərən „Qəbələ Yazarları" ictimai birliyi, COVİD epidemiyası ilə bağlı aktiv fəaliyyət göstərə bilmədi. Sədr Babayev Fəxrəddin Hünbət oğlu səhhəti ilə bağlı könüllü olaraq sədirlikdən imtina etdi. 2022-ci ildə yenidən „Qəbələ Yazarları" ictimai birliyinin iclası keçirildi. Açıq səsvermə yolu ilə keçirilən iclasda Mahmudova Rəna Azak qızı „Qəbələ Yazarları" ictimai birliyinin sədri, Umarova Gülxar Cəfər qızı sədr müavini seçildi və qeydiyyat üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə rəsmi sənədlə müraciət olundu. Birlik 2023-cü il 13 aprel tarixindən „Qəbələ Yazarlarına Dəstək" ictimai birliyi adı ilə tarixdə ilk dəfə rəsmi qeydiyyatdan geçərək Şəhadətnamə və Qeyri-Kommersiya qurumlarının Dövlət Reyestrindən çıxarışla təmin olundu. 12 nəfərlə fəaliyyətə başlayan „Qəbələ Yazarlarına Dəstək" ictamai birliyi hazırda 21 nəfər şair və yazarı öz ətrafında birləşdirir.

Bu gün Qəbələ rayonunun yazarları içərisində şeirlə, şeiriyyatla ürəyi döyünən onlarla şair və nasirlər var. Azərbaycan xalqının haqlı mübarizəsini əks etdilər 44 günlük müharibə qəhrəmanlarına həsr olunan nə qədər kitablar şeirlər, povest və hekayələr, dastanlar, mahnılar ərsəyə gəlib. Birliyin üzvü Qərib Hüseynovun general Polad Həşimova yazdığı „O bir əfsanə idi", şəhid Arəstəyə yazmış olduğu „Arəstə dastani" poeması, Bibixanım İsayevanın general Polad Həşimova həsr etdiyi „İnsanlığın zirvəsi", həkim leytenent Aqşin Ənvərlinin həyat və fəaliyyəti, döyüş şücaətini tərənnüm edən „Ağ rəngin sehri" kitabları, şairə

Zinyət Tahirlinin Qarabağ şəhidlərinə həsr etdiyi „Mənim dünyam" adlı şeirlər kitabı, Fəxrəddin Bababəylinin „Yarıya bölünmüş ürək", Rəna Mahmudovanın „Onun böyük ürəyi" povestlər kitabı, 3 kitab müəllifi Pərvanə Zalamlının General Mayor Polad Həşimovun əziz xatirəsinə həsr etdiyi, „Poladim" şeirinə və qələbə münasibətilə qələmə aldığı „Qələbə bizimdir" adlı şeirinə bəstələnən mahnılar Teleradionun və Müdafiə Nazirliyinin qızıl fonduna daxil edilmişdir. Birliyin üzvlərindən Əhməd Məmmədli öz şəxsi kitabını dərc etdirməsə də öz xərçinə İ.B.Qutqaşınlı, İbrahim bəy Musabəyov, Tofiq Vəndamlı kimi şəxslər barədə bülletenlər dərç etdirib, ölkəmizi tanıyaq turunun uşaqlarına pulsuz olaraq paylamışdır.

Birlik üzvləri ilə birlikdə Xalq şairi Musa Yaqubun anım günü münasibətilə "Dünya evi darısqaldır" adlı kitabı nəşr etdirilərik mərhumun anım günündə ailəsinə və oxuçulara təqdim olunmuşdur. Bu gün Məzahir Xalidoğlunun vətənpərvərlik və digər mövzularda 3, Murad Ömərin 1, Mərziyyə Qəbələlinin 1 kitabı işıq üzü görmüşdür, Bu günlərdə Asim Məmmədovun yenicə çapdan çıxmış „Tək çiçək" adlı kitabının təqdimatı keçirilmişdir.. Gülxar Vəfalının, Zenfira Cəfərovanın, Natəvan Yusifovanın və digər birlik üzvlərinin kitabları dərc olunmasa da şəhidlərimizə, xalqımızın qəhrəmanlığına, sevgiyə, insanlığa həsr etdikləri şeirləri dinlənilmiş, sosial şəhifədə paylaşılmışdır

Bu gün qürurla deyə bilərik ki, tarixdə ilk dəfə Qəbələ yazarlarına dəstək" ictimai birliyinin yaranması bu gün Qəbələ yazarlarının əldə etdiyi ən böyük nailiyyətdir. Onu da qeyd edək ki, amalımız Qəbələnin bütün yazarları ilə bir arada olmaq, istedadlı gənclərin ədəbiyyata, mədəniyyətimizin çiçəklənməsinə dövlətimizin möhkəmlənməsinə, onlarda vətənpərvərlik hisslərinin aşılanmasına vətənə öz töhfələrini verməleri üçün aralarımızda görmək, zərərli vərdişlərdən kənar olmalarına şərait yaratmaqdır.

İstedadı olan gəhçləri birliyimizdə görmək istərdik.

Ünvan: Qəbələ Poçtamti: 3-cü mərtəbə.

**Rəna MAHMUDOVA,**
**„Qəbələ Yazarlarına Dəstək" ictimai birliyinin sədri.**